UOT 330.88:339 (479.24)

# Azərbaycanın geoiqtisadi inkişaf konsepsiyası və milli iqtisadi mənafelər problemi



**Kərimli İrşad Abdul oğlu** *
iqtisad elmləri doktoru, prof.

## Xülasə

*Tədqiqatın məqsədi* – Azərbaycanın daxil olduğu geoiqtisadiyyatda ölkənin mövqeyini, onun fəaliyyət dairəsini dəqiqləşdirməklə milli iqtisadi mənafeyin reallaşması imkanlarını aşkara çıxarmaqdır.

*Tədqiqatın metodologiyası* – elmi metodologiyanın üsullarından istifadə ilə yanaşı, klassik iqtisadçıların apardıqları nəzəri təhlil və ümumiləşdirmələrdən ibarətdir.

*Tədqiqatın nəticələri* – bu gün Azərbaycanın geoiqtisadiyyatda Rusiya, Türkiyə, İran və s. kimi bir çox ölkələrin iqtisadi-siyasi maraqlarının toqquşduğu bir bölgəyə çevrilməsi daha da aydınlaşır və həmin dövlətlərlə normal münasibətlər yaratmaq ideyası güclənir. Bunu əsas götürən Azərbaycan dövləti özünün milli iqtisadi mənafelərini həyata keçirəcək mexanizmin başlıca elementlərini, yəni xarici iqtisadi siyasətin başlıca istiqamətlərini dəqiqləşdirməkdədir.

*Tədqiqatın məhdudiyyətləri* – geoiqtisadiyyat probleminin, geoiqtisadiyyatda Azərbaycanın mövqeyinin və habelə onun milli iqtisadi mənafelərinin reallaşmasının öyrənilməsi hələ ki, məhdud çərçivədədir.

*Tədqiqatın praktiki əhəmiyyəti* – geoiqtisadiyyata və qlobal iqtisadiyyata Azərbaycanın milli iqtisadiyyatının inteqrasiya olunma motivlərinin güclənməsi, onun mikrosubyektlərinin (*firma, şirkət və korporasiya*) geoiqtisadi miqyasda uğurlar qazanması meydana çıxır.

*Tədqiqatın orijinallığı* – Azərbaycanın geoiqtisadi mövqeyinin güclənməsi, ölkənin həmin məkanda milli iqtisadi mənafelərinin reallaşması imkanları sistemli tədqiq edilmişdir.

**Açar sözlər:** *geoiqtisadiyyat, iqtisadi strategiya, inkişaf konsepsiyası, milli iqtisadi mənafelər, iqtisadi güc.*

* Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq iqtisadi münasibətlər" kafedrası. AZ1001. Bakı, İstiqlaliyyət, 6.
i.karimli@aseu.az



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

## 1. Giriş

Azərbaycanın geoiqtisadi strategiyasının inkişaf istiqamətlərinin dəqiqləşdirilməsi əsasında ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasının perspektivlərini görmək olar. Müasir dünyanın müxtəlif regionlarını əhatə edən geoiqtisadiyyatın inkişafını gələcəkdə necə təsəvvür etmək olar? Sualın cavabını aşağıdakı anlamda vermək olar:

- ❍ dövlətlərin və regionların bir-birindən iqtisadi asılılığı daha sürətlə artacaq;
- ❍ regional və qlobal iqtisadi problemlər daha da kəskinləşəcək;
- ❍ güclü və dağıdıcı silah ehtiyatları çoxalacaq;
- ❍ regional və beynəlxalq iqtisadi inteqrasiya proseslərində ölkələrin geniş və tam iştirakına zərurət artacaq;
- ❍ ümumdünya iqtisadi problemlərinin dərhal həllinə daha çox ehtiyac yaranacaq və bunların həlli üçün yeni, ümumbəşəri həmrəylik mexanizminin işlənib hazırlanması tələb olunacaq.

Geoiqtisadi inkişaf konsepsiyası ilə milli iqtisadi mənafelər arasında qarşılıqlı əlaqənin başa düşülməsinə metodoloji yanaşmanın müəyyənləşdirilməsində iqtisadi, sosial, mənəvi və etik dəyərlərin, meyarların rolu xeyli güclənir və aktuallaşır. Bu gün dünyanın super iqtisadi güc dövlətləri müxtəlif regionlarda iqtisadi və siyasi dəyişikliklərə “yardım göstərmək” pərdəsi altında regional iqtisadi vəziyyətin “yaxşılaşdırılması” üçün müxtəlif güc modellərindən istifadə edirlər. Təsadüfi deyil ki, məhşur siyasətçi Genri Kisencer özünün “Diplomatiya” əsərində yazır ki, “Bu gün Birləşmiş Ştatlara dünyaya meydan oxumaq o qədər də təhlükəli deyil” [1]. Bu mənada ABŞ və onun müttəfiqləri ayrı-ayrı regionlarda yeni iqtisadi və siyasi güc imperiyalarının dirçəlməsinə imkan vermir. Çünki bu, ABŞ-ın daha iri Avroatlantika sistemini yaratmaq kimi geostrateji məqsədinin formalaşmasına əngəl törədə bilər.

Geoiqtisadi inkişafa iqtisadi mənafelər balansına əsaslanan yeni yanaşmanın işlənib hazırlanması üçün bu gün müttəfiqlik əlaqələrinə və birləşmələrinə yenidən baxılmasını tələb edir: Bir tərəfdən qarşılıqlı iqtisadi asılılıq və inteqrasiya prosesləri inkişaf etdikcə blokdaxili əlaqələr hərtərəfli inkişaf edir, rəngarənglik kəsb edir, həmin proses daha da güclənir. İqtisadi əməkdaşlığın təkmilləşdirilməsi yolu ilə, xüsusilə xammal-materiallar ixrac edən ölkələrlə texnika-texnologiya ixrac edən ölkələr arasında əməkdaşlığın yeni qaydalarına daha çox ehtiyac yaranır. Digər tərəfdən isə iqtisadi blokların və təşkilatların iştirakçısı olan dövlətlər üçün müəyyən mənada iqtisadi birləşmələrləngitmə amili olmağa başlayır.

Azərbaycanın geoiqtisadi strategiyasının, milli iqtisadi inkişafa və milli iqtisadi mənafelərin möhkəmlənməsinə xidmət etmək yolunda meydana çıxan beynəlxalq miqyaslı bir gərginlik varsa, o da Qarabağ problemidir. Vaxtilə “Qarabağ bizim daxili işimizdir, bunu biz özümüz həll etməliyik” təşəbbüsü artıq daxildən xaricə çıxmış, dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzində dayanmışdır. Qarabağ münaqişəsi

bu gün beynəlmilliləşmiş, onun həllinə qoşulan tərəflərin sayı artmış və bu, əksinə, gərginliyi heç də azaltmamışdır. Çünki onun aradan qaldırılmasına qoşulan dövlətlərin də milli və regional iqtisadi maraqlarının ziddiyyətli olduğu bəlli olmuşdur.

Milli və regional mənafelərin həyata keçirilməsində geoiqtisadi məkana daxil olan dövlətlərin maraqları hökmən nəzərə alınmalıdır. Əslində, dövlətlərarası iqtisadi əlaqələr sahəsində yaranan gərginliyin mahiyyəti, ilk növbədə, müxtəlif iqtisadi sistemli dövlətlərin özlərinə xas olan milli iqtisadi mənafelərinin müxtəlifliyindən ortaya çıxır. Dünyanın bütün regionlarında cərəyan edən hadisələrin özünəməxsusluğu sistemlərin və böyük dövlətlərin qarşıdurma meyilləri ona gətirib çıxardı ki, dünyanın iqtisadi və siyasi davranışı qarşılıqlı qorxu və öz təhlükəsizliyini qorumaq üçün narahatlıq obyekti olur.

Danılmaz faktdır ki, dünyanın iqtisadi və siyasi qaydalarını Şimali Amerika reallığı və Amerikasayağı dünya anlamı müəyyən edir [2]. Həmin anlama görə, dünya birliyinin iqtisadi və siyasi piramidasının zirvəsində iki ən iri region – Şimali Amerika və Qərbi Avropa dayanır, onların ardınca isə böyük dövlətlər, yəni BMT Təhlükəsizlik Şurasının üzvləri sıralanır. Bunlardan sonra beynəlxalq problemlərin həllində çəkisi və nüfuzu nisbətən az olan dövlətlər öz sözünü deyə bilir. Bir tərəfdən Çinin nüvə dövləti rolunda çıxış etməsi, regional və dünya bazarında güclü mövqe tutması qüdrətli iqtisadi dövlət kimi dünya iqtisadi məkanına atılması, digər tərəfdən isə ümumilikdə neft ixrac edən ölkələr təşkilatının, ayrılıqda isə neft ixrac edən ərəb ölkələrinin birgə fəaliyyətinin meydana gəlməsi geoiqtisadi inkişafda ziddiyyətləri ön plana keçirərək ən iri dövlətlərin beynəxalq iqtisadiyyatdakı hadisələrə yönələn siyasətində dəyişikliyə ehtiyac yaratdı. Lakin həmin geoiqtisadi problemlər hələ də Avropa-Amerika mərkəzçiliyi məcrasında həll olunmaqda davam edir. Belə qütbləşmə bütünlükdə dünya inkişafı üçün təhlükənin haradan gəldiyini az-çox dəqiqliklə müəyyən edə bilir. Yaponiyanın özü Uzaq Şərqdə Qərbin tərkib hissəsinə çevrilmişdir. XXI əsrin başlanğıcında baş verən gərgin, bəzən də yönümü bilinməyən geoiqtisadi hadisələr müasir beynəlxalq iqtisadi münasibətlər qarşısına mürəkkəb problemlər çıxarır, bunları yeni metodologiya baxımından dərindən öyrənmək, bütünlükdə XXI əsr ərzində baş verə biləcək beynəlxalq iqtisadi münasibətləri proqnozlaşdırmaq kimi çətin məsələlər qoymuşdur.

## 2. Geoiqtisadiyyata elmi-metodoloji yanaşma

Geoiqtisadiyyat termininin ensiklopedik tərcüməsini bugünkü dünyanın mənzərəsi barədə düzgün təsəvvür yaratmaq baxımından məqbul hesab etmək olar. Geoiqtisadiyyat dedikdə: dövlətlərin, yaxud blok dövlətlərin iqtisadi vəziyyətinin ərazi-məkan xüsusiyyətlərinin lokal, regional, kontinental və qlobal beynəlxalq iqtisadi problemlərə təsirinin konkret-tarixi formalarını və yerini səciyyələndirmək kimi başa düşülməlidir [6].

Qərbin iqtisadi və siyasi fikrində də geoiqtisadiyyat termini bəzən özünün adekvat məzmunu baxımından düzgün araşdırılmamışdır. Məsələn, məşhur ingilis coğrafiyaşünası X.Makkinder hələ yarım əsr bundan əvvəl hesab edirdi ki, geoiqtisadiyyat iqtisadi coğrafiyanın, insanın və tətbiqi elmlərin kombinasiya olunmuş şəkildə öyrənilməsi kimi başa düşülməlidir. Geoiqtisadiyyat termininin şərhində hiss olunan natamamlıq, görünür bununla əlaqədardır ki, bu elm sahəsini öyrənərkən Qərb alimləri onun xüsusi metodoloji əsaslarının yaradılmasına o qədər də diqqət verməmiş, sadəcə dünyada iqtisadi və siyasi qüvvələr nisbətini müəyyənləşdirərkən hazır biliklərin və metodların tətbiqi ilə kifayətlənmişlər. Görünür, məsələ həm də bundadır ki, tətbiqi sahə olduğundan geoiqtisadiyyat insanın iqtisadi-siyasi fəaliyyəti ilə bağlı bütün sahələrə, iqtisadiyyata, hüquqa, sosiologiyaya, xüsusilə də konfliktologiyaya mühüm təsir göstərə bilir.

Regionlar və mənafelər uğrunda aparılan iqtisadi rəqabət və siyasi mübarizə geoiqtisadiyyatdan başlayır, yeni regionlaşma adlandırdığımız fenomen bu müstəvidən formalaşır. Dünyanın iqtisadi sahəsində qüvvələr nisbətini təhlil edərkən, bir qayda olaraq, iqtisadi güc mərkəzləri, yaxud beynəlxalq iqtisadi münasibətlərin obyektləri arasında nisbətlər nəzərə alınır. Həmin iqtisadi güc mərkəzləri ərazilərlə müəyyən edildiyindən və onlar arasındakı münasibətlər digər məkan münasibətləri ilə şərtləndiyindən, əlbəttə ki, bu halda coğrafi amil mühüm rol oynayır. X.Makkinderin və digər alimlərin hazırladıqları geoiqtisadi konsepsiya hazırda da dünya okeanından istifadə, kosmosun mənimsənilməsi, demoqrafik dəyişikliklər və s. kimi problemlərin tədqiqinə böyük təsir göstərir. Müasir dünya inkişafı göstərir ki, geoiqtisadi konsepsiyanın hazırlanmasına təkcə coğrafi biliklər kifayət etmir, burada milli qüdrəti müəyyənləşdirən iqtisadi, hərbi-siyasi, sosiologiya kimi müasir elmi biliklərdən istifadə etmək son dərəcə vacibdir.

Geoiqtisadiyyat nisbətən gənc elmdir. Birinci dəfə bu anlayışı İsveç siyasətşünası R.Qeller Almaniyanın dünyanı bölüşdürmək və "həyat məkanı" əldə etmək naminə digər dövlətlərə qarşı apardığı müharibə ilə əlaqədar irəli sürmüşdür. "Həyat məkanı" anlayışını digər məşhur coğrafiyaşünas alim F. Rantsel elmə daxil etmişdir.

Hər hansı bir dövlətin dünya iqtisadiyyatında tutduğu mövqe onun beynəlxalq əmək bölgüsündə (*BƏB*) iştirakı, dünyada obyektiv mövcud olan təbii-iqtisadi amillər əsasında yaranır. Bu, həmin dövlətin dünyada geoiqtisadi üstünlüklərini ifadə edir. Belə obyektiv dəyişməz amillərdən biri təbii-coğrafi yerləşmədir. Məsələn, İngiltərə və Birləşmiş Ştatlar geoiqtisadi və siyasi anlamda dəniz dövlətləri kimi xarici siyasət yeridirlər. ABŞ-ın Avropadan uzaqda yerləşməsi, ilk əvvəllər dünyanın ərazi və iqtisadi cəhətdən bölüşdürülməsi uğrunda mübarizə aparması ona sürətlə və səmərəli inkişaf etməyə imkan vermişdir. Bu mənada, Sakit və Atlantik okeanın təbii, iqtisadi və ərazi potensialı ABŞ üçün müstəqil fəaliyyət meydanına çevrilmişdir. Təsadüfi deyil ki, ABŞ-ın geoiqtisadi siyasətinin istiqamətləri, xüsusilə Asiya-Sakit okean, Atlantik, Aralıq dənizi, Qafqaz, Yaxın Şərq regionları ilə bağlı strategiyası

xüsusi səylə işlənib hazırlanır. ABŞ-da siyasi və iqtisadi nüfuz sahiblərinin və hətta ölkə prezidentlərinin geoiqtisadi siyasətdə söylədikləri: "Biz dost qazanmaqla qalib gəlirik" fikri olduqca maraqlıdır. Təbii ki, belə kəlam heç də milli mənafeləri yerli-yersiz qurban verməyi nəzərdə tutmur.

## 3. Geoiqtisadi strategiya və milli iqtisadi mənafelərin formalaşması

Müasir dövr göstərir ki, geoiqtisadiyyatla milli iqtisadi mənafelərin uyğunlaşdırılmasının ən mühüm yolu dünyada iqtisadi inkişafı sürətləndirməkdir. Əgər hər hansı bir dövlətdə sosial həyatın başlıca məqsədi hərbiləşmə olarsa sabit inkişafdan danışmaq olmaz. Son nəticədə ölkənin təbii və iqtisadi ehtiyyatları hərbiyə yönəldilməklə sosial qurumların inkişafına əngəl törədir. Hazırda belə vəziyyət geoiqtisadiyyatla milli iqtqsadi mənafelər arasında uyğunsuzluq yaradaraq geostrateji amillərin toqquşmasına və bir sıra münaqişələrə səbəb olur. Bu, özünü hər şeydən əvvəl, ABŞ-ın, Fransanın və Böyük Britaniyanın Ərəb dünyasında yeritdikləri geosiyasətində özünü göstərir.

ABŞ strateqlərinin dediklərinə görə, Qərbi Avropanın iqtisadi cəhətdən güclü ölkələrinin (*Almaniya, Fransa və s.*) strateji mövqeyi ona imkan verir ki, "ayaqqabılarını suya batırmadan" öz iqtisadi potensialı ilə Avropada, Asiyada və Orta Şərqdə əlverişli iqtisadi fəaliyyət göstərsin. Halbuki, ABŞ və bu kimi ölkələrin iqtisadi fəaliyyəti onların iqtisadi gücü yalnız dəniz kommunikasiyaları sayəsində mümkün ola bilər. Məhz geoiqtisadi mənafelərin işlənilib hazırlanmasında bu gün də həmin amillərdən istifadə olunur. Hazırda və gələcəkdə iqtisadi zorakılıqla xammal mənbələrini və satış bazarlarını ələ keçirmək üçün dünyanı iqtisadi və ərazi cəhətdən yenidən bölüşdürmək öz aktuallığını itirmişdir. Geoiqtisadiyyatın başlıca aspekti ilə bağlı olan bu problem dünya birliyi tərəfindən beynəlxalq hüquq normaları çərçivəsində qəbul olunmur.

ABŞ-ın prezidentləri olmuş ata və oğul Buşların hakimiyyəti dövründə işlənib hazırlanmış "Yeni Amerika milli iqtisadi təhlükəsizlik strategiyası"na görə, ABŞ Atlantik okeanının sərvətlərindən milli iqtisadi mənafelərini həyata keçirmək naminə daha səmərəli istifadə etmək fikrindədir. Gələcəkdə Yaxın Şərqin təbii potensialından ABŞ-ın mənafelərinə uyğun istifadə etmək imkanları Avropadakı potensialla müqayisə olunur. Buna isə analoji formada cavab verilməlidir. Bu gün amerikalıların Qərbə meyli özünü güclü göstərməkdədir. ABŞ əhalisinin 99%-i (*ölkə liderlərinin 42%-i*) Avropanı ABŞ üçün Asiyadan daha vacib hesab edirlər. Ölkə liderlərinin 85%-i, əhalinin isə 49%-i vahid Avropa məkanının yaranmasına pozitiv yanaşırlar.

Dünyada yeni geoiqtisadi mərkəzlərin kombinasiyası və müasir geoiqtisadi vəziyyəti səciyyələndirən "Ekonomist" jurnalı hesab edir ki, hazırda dünya dövlətlərindən bir kvartet yaranmışdır. "Güclü Amerika, inkişaf edən Çin, mübarizə aparan Rusiya, mövqeyi müəyyənləşdirilmiş Avropa böyük dövlətlərin yeni kvarte-

tini təşkil edirlər". Gələcəkdə bunlara Yaponiyada və müsəlman dünyasında yarana biləcək iqtisadi güc mərkəzi birləşə bilər. Hesab edilir ki, güclü dövlətlərə Türkiyə, Braziliya və Hindistan da qoşula bilər. Dünyada iqtisadi güclərin nisbəti dəyişdikcə ehtimal etmək olar ki, yeni tip münaqişələr də yarana bilər.

Yuxarıda deyilənlər bunu deməyə əsas verir ki, geoiqtisadiyyat bütün iqtisadi və siyasi problemləri, o cümlədən milli iqtisadi mənafelərin müəyyənləşdirilməsində müstəsna rol oynaya bilər. Bu mənada, milli iqtisadi mənafe anlayışı yalnız beynəlxalq iqtisadi münasibətlərin aparatında deyil, eyni zamanda geoiqtisadiyyat nəzəriyyəsinin əsas kateqoriyalarındandır. Geoiqtisadiyyatla milli iqtisadi mənafe arasında qarşılıqlı əlaqənin qiymətləndirilməsində müasir beynəlxalq iqtisadi münasibətlərin yeni reallıqlarına cavab verəcək ümumi meyarlardan istifadə edilməlidir. Geoiqtisadi ziddiyyətlərin müasir mahiyyətini düzgün dərk etmək tələbi ön sıraya çıxır. Geoiqtisadiyyat konsepsiyasında milli iqtisadi mənafe özünün konkret ifadəsini ölkənin xarici iqtisadi siyasət kursunda tapır. Bunu başa düşmək üçün ölkənin dünya iqtisadiyyatında tutduğu və ya tutmaq istədiyi mövqe ilə, həmçinin digər dövlətlərə münasibətdə güddüyü məqsədlərlə əlaqələndirilməlidir [3].

Fikrimizcə, milli iqtisadi mənafelər əbədi olmasa da, hər halda təbii və obyektiv haldır. Çünki coğrafi-iqtisadi amillər dəyişməz, əbədi amillərdir. Buna görə də hər bir sonrakı nəsil həmin problemlərlə üzləşəcək, onların həlli yollarını axtarmalı olacaqdır. Müasir reallıq göstərir ki, Qərbin Yaxın Şərqdə və ərəb dünyasında geoiqtisadi inkişaf baxımından müəyyən strateji marağı vardır. Qərbin adı çəkilən regionlarda daimi iqtisadi fəaliyyəti onun strateji marağı ilə bağlıdır. Həmin strateji maraq Sxem 1-də təqdim edilmişdir:




**Sxem 1. Geoiqtisadi inkişaf və milli iqtisadi marağın qorunması**

ABŞ-ın timsalında demək olar ki, ölkənin iqtisadi marağı dövlətin iqtisadi siyasət səhnəsində özünün iqtisadi diplomatiyası vasitəsilə iqtisadi mənafelərini həyata

keçirməsidir[4]. Bu mənada, dövlətin xarici iqtisadi siyasəti digər dövlətlərə münasibətdə onun milli iqtisadi mənafeyinin ifadəsidir. Əgər hər hansı bir dövlət özünün milli iqtisadi mənafeyini mövcud humanizm ruhunda ifadə edərsə, onda həmin dövlət özünün iqtisadi tələbatını və ambisiyalarını məhdudlaşdırmalı, "balanslaşdırılmış mənafelər" prinsipini rəhbər tutmalıdır. Mənafelər balansı siyasəti geniş həyata keçirilərsə, onda dövlətlər öz milli iqtisadi mənafelərinin qarşılıqlı uzlaşdırılması üçün onlara müntəzəm baxmağa məcbur olacaqlar. Ölkənin milli iqtisadi tələbatının və onların ödənilməsi imkanlarının nəzərdən keçirilməsi üçün milli iqtisadi mənafelərin obyektiv qiymətləndirilməsinə nail olmaq lazımdır. Nəzərə alınmalıdır ki, dövlətin geoiqtisadi səylərinin əsasında obyektiv qiymətləndirilən milli iqtisadi mənafe durmalıdır. Belə halda milli iqtisadi mənafenin həyata keçirilməsini əsas tutan geoiqtisadiyyatın özünün də mahiyyətinin dəyişməsi zərurətini qəbul etməli oluruq.

Bir ölkənin milli iqtisadi mənafelərini digər ölkələrin mənafelərinə uzlaşdırmaqla əməkdaşlığa, qarşılıqlı inkişafa girməklə yeni qaydalara əsaslanan dünya yarana bilər. Bu mənada, yeni keyfiyyəti ilə geoiqtisadiyyat dünya inkişafının əsas aləti ola bilər. Çünki belə geoiqtisadiyyat obyektiv mövcud olanın dəyişməzliyinin əsasında dayanır. Burada, bir tərəfdən, məkan coğrafi amil, digər tərəfdən isə dövlətin daxili və xarici iqtisadi potensialı dayanır. Geoiqtisadiyyatın bu günün tələbləri baxımından yeni məzmun kəsb etməsi, fikrimizcə, ona gətirib çıxarır ki, ölkələr bu gün gördüyümüz "müdrik" iqtisadi güc və geosiyasi kombinasiyalardan əl çəkməli və beynəlxalq iqtisadi münasibətlərin yeni modelini hazırlamalıdırlar. Tarixi təcrübə göstərir ki, dövlətin geoiqtisadi vəziyyəti onun tərəfdaşlar seçməsində və rəqibləri ilə qarşılıqlı münasibətlərinin inkişafında həmişə üstün yer tutmuşdur. Hazırda da belədir, yəni ölkənin xarici iqtisadi siyasətini formalaşdıran geoiqtisadi ölçülər ciddi nəzərə alınır və dəqiqləşdirilir.

## 4. Geoiqtisadiyyatda Azərbaycanın milli iqtisadi mənafelərinin reallaşması mexanizmi

Hazırda Yeni Dünyanın yeni qaydalarla tənzimlənməsi şəraitində geoiqtisadi siyasətin bütün potensialı milli və regional iqtisadi mənafelərin uyğunluğunun dünya miqyasında müdafiə olunmasına yönəldilməli, bütün siyasi və iqtisadi diplomatiyanın hərəkətverici qüvvəsinə çevrilməlidir. Bu mənada, Qafqazla, xüsusən, Cənubi Qafqaz regionu ilə bağlı yeridilən geoiqtisadi siyasət diqqəti cəlb edir.

Hazırda Azərbaycanın iqtisadi diplomatiyası geoiqtisadiyyat konsepsiyasını hazırlayarkən özünün milli iqtisadi mənafelərini dəqiq və hərtərəfli dərk etməli və belə bir mühüm prinsipdən çıxış etməlidir: milli iqtisadi mənafelər yalnız başqa tərəfin milli iqtisadi mənafelərinə qarşılıqlı hörmət şəraitində uğur qazana bilər. Sxem 2-də də təqdim olunduğu kimi, indiki geoiqtisadi vəziyyətdə Azərbaycanın milli iqtisadi mənafelərinə aşağıdakıları da daxil etmək olar:

- ❑ ölkənin ərazi bütövlüyünün bərpası və onun qorunmasını təmin etmək;
- ❑ bazar iqtisadiyyatının inkişafını və onun regional inteqrasiya proseslərinə qoşulmasını sürətləndirmək;
- ❑ respublikada siyasi sabitliyin daha da möhkəmləndirilməsi və iqtisadi islahatların dönməzliyinə təminat verən siyasi və iqtisadi demokratiyanı inkişaf etdirmək;
- ❑ Azərbaycan iqtisadiyyatının yeniləşən beynəlxalq iqtisadi münasibətlər sistemində fəal və tam hüquqlu iştirakını təmin etmək.




**Sxem 2. Azərbaycanın geoiqtisadi siyasətinin istiqamətləri**

Məlumdur ki, bu gün Azərbaycan özünün geoiqtisadi mövqeyinə görə bir çox ölkələrin, daha dəqiq deyilsə, ABŞ, Rusiya, İran və Türkiyə kimi dövlətlərin siyasi-iqtisadi maraqlarının toqquşduğu bir bölgəyə çevrilmişdir.

Geoiqtisadi məkanda milli iqtisadi mənafelər balansının obyektiv qiymətləndirilməsi baxımından xarici tərəfdaşlarla sabit iqtisadi əlaqələrin yaradılması üçün dövlət özünün xarici iqtisadi siyasət fəaliyyətini yenidən qura bilər. Bunun üçün Sxem 3-də də təqdim olunduğu kimi, aşağıdakı amillərin köməyindən istifadə etmək lazım gəlir:

- ❖ geoiqtisadiyyata daxil olan ölkələrin milli iqtisadi mənafeləri arasında Azərbaycanın milli iqtisadi mənafelərinin reallaşması üçün müntəzəm informasiya mübadiləsi aparmaq;
- ❖ geoiqtisadiyyatda milli iqtisadi mənafeləri uyğunlaşdırmaq üçün müxtəlif səviyyələrdə görüşləri vaxtaşırı həyata keçirmək;
- ❖ konfedensial və gizli danışıqlar da daxil olmaqla, ikitərəfli müqavilələr və sazişlər bağlamaq;

- tərəfdaş dövlətlərin daxili və xarici iqtisadi siyasət imkanlarının inkişafı naminə başqa dövlətlərin həmin imkanları məhdudlaşdırmaq cəhdinə qarşı tədbirlər görmək;
- ölkənin milli iqtisadi mənafelərinə qarşı haqsız müdaxilə hallarında geoiqtisadiyyatın yeridəcəyi qismən, yaxud tam iqtisadi blokadaya hazır olmaq.




**Sxem 3. Geoiqtisadiyyatda Azərbaycanın milli iqtisadi mənafelərinin reallaşması amilləri**

Milli iqtisadi mənafelərin reallaşmasının mühüm ümumiləşmiş göstəricisi ölkədə ÜDM-in artımı hesab edilə bilər ki, bu da bütün ölkə vətəndaşlarının və təsərrüfat subyektlərinin iştirak səviyyəsini göstərir. Bunu Cədvəl 1-dən də görmək olar.

**Cədvəl 1. Adambaşına düşən mütləq həcmdə Azərbaycanda ÜDM-in artım dinamikası**

| İllər üzrə | mln. AZN | Adambaşına, manatla |
|---|---|---|
| 1995 | 2133.8 | 282.1 |
| 2000 | 4718.1 | 595.1 |
| 2005 | 12522.5 | 1513.9 |
| 2010 | 38005.7 | 4439.9 |

*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

Bunun əsasında Azərbaycan özünün milli iqtisadi mənafelərini həyata keçirəcək bir mexanizm olan xarici iqtisadi siyasətin başlıca istiqamətlərini dəqiqləşdirməlidir. Bu mənada, ən vacib şərt qonşu dövlətlərlə normal münasibətlər yaratmaq ideyasına

söykənməkdir. Bunu əsas götürərək ölkəmizdə milli iqtisadi mənafelər baxımından xarici iqtisadi siyasətimizin aşağıdakı istiqamətlərini göstərmək istərdik:

- geoiqtisadi baxımdan MDB dövlətləri ilə iqtisadi əlaqələri normal saxlamaq son dərəcə vacibdir. İki əsrə yaxın əvvəlcə Rusiya imperiyasında, sonra isə keçmiş SSRİ-nin tərkibində yaşamış Azərbaycan üçün bu, olduqca həyati tələbatdır. Unudulmamalıdır ki, türk dünyası dövlətlərinin böyük əksəriyyəti MDB məkanında yerləşir;
- "İpək yolu"nun üstündə yerləşən, zəngin təbii ehtiyatları olan Azərbaycan Avropa dövlətlərinin iqtisad maraqlarından faydalanmağın yollarını axtarmaq istiqamətində geostrateji araşdırmalar aparmalıdır;
- ABŞ-ın Qafqaz regionuna, xüsusilə, Azərbaycana strateji nüfuz bölgəsi kimi baxdığını və Azərbaycan gerçəkliyinə artan iqtisadi marağını nəzərə almaq olduqca vacibdir;
- Azərbaycan özünün milli iqtisadi mənafelərini Şərq xarici iqtisadi siyasətinə istiqamətləndirməlidir. Asiya və Afrikanın islam dövlətləri ilə intensiv iqtisadi əlaqələr saxlanılmalıdır. Güclü Azərbaycanın formalaşması onun müasir geoiqtisadi reallıqlarını düzgün nəzərə alan yetkin milli iqtisadi mənafelərindən, onların reallaşması mexanizmindən çox asılıdır.

Azərbaycanın milli iqtisadi mənafelərinin həyata keçirilməsi, geoiqtisadi inkişaf səviyyəsində uğur qazanmasının əhəmiyyəti daha çox müasir beynəlxalq iqtisadi münasibətlər səviyyəsində üzə çıxır. Bu mənada, ölkəmizin geoiqtisadi inkişafını özündə əks etdirən neft strategiyası milli iqtisadi mənafelərlə yanaşı, koalisiya (*dövlətlərarası*) mənafeyini də özündə əks etdirir. Bu da ölkənin milli iqtisadi mənafelərinin nəinki bu gün və sabah, habelə yaxın və uzaq perspektivdə reallaşması diapazonunu genişləndirir. Belə şəraitin özü ölkənin iqtisadi diplomatiyasının formalaşmasına və inkişafına yol açır. Təsadüfi deyil ki, 1994-cü ildən etibarən Azərbaycanda "neft diplomatiyası" deyilən anlayış özünə geniş yer tapdı [5]. Belə diplomatiya nəticəsində Azərbaycan lider-dövlət mövqeyi əldə etdi, regionda güclü geoiqtisadi inkişafa (*bütünlükdə Cənubi Qafqazın ümumi məhsulunun ¾ hissəsi Azərbaycanda istehsal olunur*) nail oldu. Azərbaycan iqtisadiyyatının tam təkrar istehsal sistemi kimi bütünlükdə xarici iqtisadi əlaqələrə, ayrılıqda isə geoiqtisadi inkişafa uyğunlaşdırılması milli iqtisadi mənafelərin reallaşmasının mühüm təzahürüdür. Burada geoiqtisadi və beynəlxalq rəqabətə girmək, milli iqtisadiyyatımızın dünyanın ÜDM-də bir qədər çox xüsusi çəkiyə malik olması əsas məqsəd hesab edilir. Bu vəziyyət geoiqtisadiyyatda və bütünlükdə dünya iqtisadiyyatında Azərbaycanın hansı üstün statusla çıxış etməsi öz ifadəsini tapa bilir. Sözsüz ki, belə analitik baxış, ilk növbədə, geoiqtisadiyyat səviyyəsində özünü göstərməlidir.

Diaqram 1-dən göründüyü kimi, 2009-cu ildə MDB ölkələrində ÜDM orta hesabla 7% azalmış, Azərbaycanda isə 9,2% artmışdır. Bu da, Prezident İlham Əliyevin sözləri ilə desək, cari iqtisadi şəraitdə böyük tarixi göstəricidir.




**Diaqram 1. 2005-2010-cu illərdə MDB ölkələri üzrə ÜDM-in real artımı**
*Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsi*

Geoiqtisadiyyat səviyyəsində Azərbaycan iqtisadiyyatının inteqrasiyalaşma motivləri ölkənin biznes strukturları timsalında öz ifadəsini tapa bilər. Belə motivləşmənin reallaşması ayrı-ayrı subyektlərin deyil, yalnız bütünlükdə milli iqtisadiyyatın vəziyyətinin ümumi səviyyəsi ilə əlaqədar ola bilir. Bu mənada, respublikanın təsərrüfat subyektlərinin motivləri və stimulları həmin subyektlərin ifadə etdirdikləri dövlətin geoiqtisadiyyat prosesi ilə birbaşa əlaqələndirilir.

Regional və qlobal miqyasda ölkənin iqtisadi inkişafının müqayisəli üstünlüyü geoiqtisadiyyatda həmin ölkənin müasir inteqrasiyalaşma motivlərinin əsaslarından birinə çevrilir. Burada milli iqtisadiyyatın mikro subyektləri (*firmalar, şirkətlər, korporasiyalar*) beynəlxalq miqyasda böyük nailiyyətlər qazanırlar. Bütünlükdə milli iqtisadiyyatda müasir inteqrasiyalaşma motivləri xarici iqtisadi əlaqələr vasitəsi ilə milli iqtisadi mənafelərin reallaşması imkanlarını gücləndirir, ölkənin beynəlxalq rəqabət qabiliyyətini artırır. Geoiqtisadi inkişafda Azərbaycan güclü iqtisadi və siyasi mövqe tutur. Məsələn, Ümumdünya İqtisadi Forumunun məlumatlarına görə, Azərbaycan 2009-2010-cu illərdə dünya ölkələrinin qlobal rəqabət qabiliyyətli reytinqində 51-ci yeri tutmuşdur. Bu da əvvəlki illərlə müqayisədə 16 pillə irəliləmək deməkdir. Həmin məlumatlara görə, Azərbaycan yalnız MDB ölkələrini deyil, faktiki olaraq, bütünlükdə region ölkələrini əhəmiyyətli dərəcədə qabaqlamışdır. Rusiya həmin reytinqdə 63, Türkiyə 61, Qazaxıstan 67, Gürcüstan 90, Ermənistan isə 97-ci yeri tutmuşdur.

Həmin indeksin tərtibçisi olan ABŞ-ın Kolumbiya Universitetinin iqtisadiyyat professoru Xaver Salai-Martin qeyd edir ki, iqtisadiyyatın rəqabət qabiliyyətliliyi dedikdə, həmin iqtisadiyyatın istehsal amilləri ilə təminatı, onların məhsuldarlığının yüksəlməsi başa düşülür ki, bu da ölkənin hazırda və gələcəkdə çiçəklənməsinin əsasında dayanır. Beləliklə, nəinki Xəzər dənizi hövzəsində, Qafqazda, Orta Asiyada, Aralıq dənizi rayonunda, habelə Avropa iqtisadi məkanında Azərbaycanın milli iqtisadi mənafelərinin bilavasitə reallaşmasının geoiqtisadi sərhədləri genişlənir.

Aparıcı energetika və nəqliyyat dəhlizləri Avro-Asiyanı əhatə etməklə, Qərb-Şərq və Şimal-Cənub dünya meridianlarını keçməklə Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyasını genişləndirir. Belə əlverişli və səmərəli nəticələr Azərbaycanın xarici iqtisadi nailiyyətlərinin bəhrəsi olmaqla milli iqtisadi mənafelərin xeyrinə ölkənin iqtisadi diplomatiyasının güclü metodu hesab edilməlidir.

## 5. Nəticə

Məqalədə aparılan araşdırmalar və ümumiləşdirmələr belə bir nəticəyə gəlməyə imkan verir ki, Azərbaycan iqtisadiyyatının bütöv təkrar istehsal prosesi kimi bütünlükdə qlobal inkişafa, ayrılıqda isə geoiqtisadi inkişafa uyğunlaşdırılması milli iqtisadi mənafelərin reallaşdırılmasının mühüm təzahürü hesab edilməlidir. Burada qlobal və geoiqtisadi rəqabətə girmək, milli iqtisadiyyatımızın dünya üzrə ÜDM-də bir qədər çox xüsusi çəkiyə malik olması əsas məqsəd hesab edilir. Bu vəziyyətdə bütünlükdə dünya iqtisadiyyatında Azərbaycanın hansı üstün statusla çıxış etməsi öz ifadəsini tapa bilər. Sözsüz ki, belə analitik nəticə, ilk növbədə, regional, sonra isə geoiqtisadiyyat səviyyəsində özünü göstərməlidir.

Geoiqtisadiyyat səviyyəsində Azərbaycan iqtisadiyyatının inteqrasiyalaşma motivləri ölkənin təsərrüfat strukturları timsalında öz ifadəsini tapa bilər. Bu mənada, respublikanın təsərrüfat subyektlərinin motivləri və stimulları həmin subyektlərin ifadə etdikləri dövlətin geoiqtisadiyyat prosesi ilə birbaşa əlaqələndirilməlidir.

## Ədəbiyyat siyahısı:

1. Кесинджер Г. Дипломатия. М.: 1997.
2. Бжезинский З. Большая шахматная доска. М.:1997.
3. Экономическая и национальная безопасность. М.: 2004.
4. Stiqlitz C.E. Qloballaşma və onun doğurduğu narazılıqlar. Bakı: 2004.
5. Dayızadə H. Siyasət və konfliktlər. Bakı: 1998.
6. Фархутдинов И.З. Глобализация и геоэкономика: Новые прововые парадигмы мироустройства, “Законодательство и экономика” №4, апрель, 2004 г.

**Керимли Иршад Абдул оглу**
д.э.н., проф. Азербайджанский Государственный Экономический Университет

## Концепция геоэкономического развития и проблема национальных экономических интересов

### Аннотация

*Цель исследования* – раскрытие возможностей реализации национальных экономических интересов с учетом уточнения положения Азербайджана в геоэкономике.

*Методология исследования* – обобщение и теоретический анализ трудов классических экономистов, использование методов научной методологии.

*Результат исследования* – сегодня Азербайджан превращается в регион, в котором сталкиваются экономические и политические интересы таких стран, как Россия, Турция, Иран и др. Поэтому создание нормальных взаимоотношений с этими государствами становится все более актуальным. Азербайджанское государство, руководствуясь этими идеями, уточняет основные элементы механизма реализации своих экономических интересов, то есть главные направления внешнеэкономической деятельности.

*Ограничения исследования* – сегодня проблемы геоэкономики, позиции Азербайджана в геоэкономике и реализация его национальных экономических интересов мало изучены.

*Важность исследования* – укрепление интеграции национальной экономики Азербайджана в геоэкономику и мировую экономику, успех ее микропредметов в геоэкономическом масштабе.

*Новизна исследования* – исследованы возможности реализации национальных экономических интересов и укрепления геоэкономического положения Азербайджана.

**Ключевые слова:** *геоэкономика, экономическая стратегия, стратегия развития, национальные экономические интересы, экономическая мощь.*

**Karimli Irshad Abdul oglu**
prof. dr. Azerbaijan State Economic University Department of International Economics

## The concept of geo-economic development and the problem of national economic interests

## Abstract

*Purpose* – revealing of possibilities of realization of national economic interests with defining of Azerbaijan's position in its geo-economy.

*Methodology* – in addition to using methods of scientific methodology, analysis and generalization of the classical economists are carried out.

*Findings* – today, Azerbaijan's geography is transforming to clashing of economic and political interests of countries as Russia, Turkey, Iran and others in geo-economy and more clear of creating normal realations with these countries is becoming stronger. Therefore, Azerbaijan State is defining main elements of mechanisms of realization of national economic interests, in other words, main directions of foreign economic policy.

*Limitations* – today, studing of geo-economics and Azerbaijan's position and realisation of its national economic interests in geo-economy are limited frame.

*Implications* – strengthening of motives of integration of Azerbaijan's national economy to geo-economy and global economy and success of its micro-subjects in geo-economic scale are introduced.

*Originality* – strengthening of Azerbaijan's geo-economic position and its possibilities of realization of national economic interests are investigated in systematic frame.

**Key words:** *Geo-economics, economic strategy, development concept, national economic interests, economic power.*

**JEL Classification Codes:** F0, F2, F5

Məqalə redaksiyaya daxil olmuşdur: 23.04.2012.
Təkrar işlənməyə göndərilmişdir: 11.05.2012.
Çapa qəbul olunmuşdur: 30.05.2012.